# Deyim və aforizmləri

Həyat doğru-yalan yuvasıdır.

* * *

Telefon da susur, vicdan da.

* * *

İki qədəhdən sonra xəttim dəyişir. Yazı maşın, kağız yol olsaydı, avariya eləyərdim.

* * *

Allah insanlara gərək bir liderlik, bir də qul olmaq azarları verməyəydi.

* * *

Ədəbiyyatı gərək qadın kimi sevəsən ki, yazı doğa bilsin. Onun da hamilə dövrü var, doğum çağı.

* * *

Şair yazı-pozudan qalanda yetim olur, ata-ana itirəndə yox.

* * *

Ömür bazarında ən yaxşı gedən mal ölümdür.

* * *

Şair baş verənləri qapıdan qovur, o pəncərədən girir. Mən şeirlərimi bu evə həmişə qucağıma alıb gətirirəm.

* * *

Ömür həddindən artıq çox vaxt aparır.

* * *

Hansı şeirin əlindən sağ çıxa bilməyəcəyəm?..

* * *

Qocalıq yaddaşın kölgəsində oturur.

* * *

Bəzən bütün dünya Nazim Hikmətin Moskvada yadına salıb yazdığı Gülhanə parkına dönür.

* * *

Həyat tənhalıq səhrası ilə gedən yalqız yolçunun gördüyü insan mirajları, ilğımlarıdır.

* * *

Allah monopoliyası. Dinlərin əsas məğlubiyyətlərindən biri.

* * *

Şeirlərin asan yazılması da yaxşıdır, əzabla doğulması da. Poeziya mürəkkəb sadəlikdir.

* * *

Ömrün axırında həyat haqqında bircə sual vermək olar: - o nə idi, ay Allah?

* * *

Həyatın yeganə həqiqəti ölümdür.

* * *

Get-gedə yaşa dolduqca daha tez-tez şair oluram. Belə getsə, deyəsən şair olacam. Biryolluq. Döndüsüz.

* * *

Hər şey gəlib keçir. Ölüm də

* * *

Nəsr ədəbiyyatın xəstəxanası, poeziya - reanimasiya şöbəsidir.

* * *

Ədəbiyyat həmişə həyata qarşı müxalifətdə olmalıdır.

* * *

Yazıçının dili qələmi susanda açılır.

* * *

Şairləri cənnət bağındakı ağaclardan da asırlar.

* * *

Ulduzlardan nə qədər şeirlər yazılsa da, ulduzlar şeirlərdən çoxdur.

* * *

Qələm və kağıza bütün şəhərlərdə abidələr ucalmalıdır.

* * *

Yazıda ən gözəl durğu işarəsi - sual işarəsidir.

* * *

Dilin də dalında duran, əlindən tutan olmalıdır. Dili yetim qoymaq, anasından ayırmaq günahdır.

* * *

Bütün dünyadan yazmaq üçün yazıçıya iki kvadrat metr də kifayət edər.

* * *

Təbiət təsviri, peyzaj olmayan romanların qəhrəmanları sanki göydən asılı vəziyyətdə qalırlar.

* * *

Şairin şeirlə gözü yol çəkir, bəzən.

* * *

Poeziya dünyanın arzu tarixidir.

* * *

Şair üçün həyat şeir yazmağa bəhanədir.

* * *






Nə qədər yazırsan yaz, nə qədər yaşayırsan yaşa, ömrün də, yaradıcılığın da yarımçıq qalacaq.

* * *

Qələm yola düşəndə onun dalınca ya Allah su atır, ya Şeytan.

* * *

Yazıçı çıxış etməyə hazırlaşmamalı, söz deməyə həmişə hazır olmalıdır.

* * *

* * *

İstedadlı yazıçı, istedadsız yazıçı olduğu kimi istedadlı və istedadsız oxucu da var.

* * *

Puşkini dueldə öldürən güllənin səsindən neçə milyon oxucu oyandı. Öz əcəli ilə ölməyən şair daha populyar olur.

* * *

Şair yaşa dolsa da, qocalmamalıdır.

* * *

Şair sözündən qorxan ya cəlladdı, ya dəli.

* * *

Şuşa dumandan çıxan maral kimi vuruldu.

* * *

Yer üzündə ən azad insan Məcnun imiş.

* * *

Biz də planetə sürgün olunmuşuq. Kainatın Sibiridir bu dünya.

* * *

Dünyanın özbaşına yaşayacağı gündən qorxun.

* * *

Darısqal kainat. İnsan yeridikcə hər addım başı ayağı ulduzlara dəyir.

* * *

Dünya insan intriqalarının hörümçək toruna düşüb çıxa bilmir.

* * *

Özündən xəbərsiz insanların planetidir yer kürəsi.

* * *

Dünya qazamat həyəti tək balacadır. Hara qaçasan?..

* * *

Saxlayın yer kürəsini düşmək istəyirəm.

* * *

* * *

Bütün dinlər bəşərin, insan oğlunun Allah axtarışlarında getdiyi, qalxdığı, ucaldığı ən yüksək pillədir.

* * *

İntihar servisidir mənim poeziyam.

* * *

İlin bütün fəsillərində yalnız dar ağacı bar verir.

* * *

İntihar Əzrayılı qabaqlamaqdır.

* * *

Şeytan yaxşı psixoloqdur.

* * *

Əcəl olan yerdə əlac olmaz.

* * *

Əzrayıl torpaqda qalan izləri də görür, mərhəmətdə qalan izləri də.

* * *

Əzrayıl əsir götürmür.

* * *

Ömür bəzən qıl körpüsünə bənzəyir.

* * *

Ölüm yalqız qalıb haraya çəkəndə, ona da hay verən tapılsın gərək.

* * *

Torpağa məhəbbət bəlkə də ölümə olan etibardandır.

* * *

Həyatın min, ölümün bir üzü var.

* * *

Yalan demişəm, amma heç vaxt aldatmamışam.

* * *

Caz dünyanın xalq musiqisidir.

* * *

Yaddaş da adamın üzünə durur.

* * *

Xatirələrin gözəlliyi onların elə əlçatmazlığıdır.

* * *

Həyatdakı bütün ayrılıqlar "Salam" sözündən başlanır.

* * *

Rahat ölmək üçün o dünya ümidi gərəkdir.

* * *

Yer üzündə hələ bir adam həyatdan salamat çıxmayıb.

* * *

Həyat saksafona bənzəyir: özü əyri, səsi gözəl.

* * *

Həyat bahalaşanda ömür ucuzlaşır.